

QOŞQAR QARAÇAYLI

## Salam, uzaqlar

Çoxdan ürəyimə qəm çıxıb yiyə,
Niyə uzaq düşdüm sizdən mən, niyə?
Sizə dilim gəlmir qürbət deməyə,
Salam, ay uzaqlar, salam, necəsiz?

Sonu görünməyən uzun bir yolam,
Hicrana əsirəm, həsrətə qulam,
Xəbər verən də yox bir xəbər alam,
Salam, ay uzaqlar, salam, necəsiz?

Ağacda quruyan budaq kimiyəm,
Budaqda saralan yarpaq kimiyəm.
Nə vaxtdır qaranlıq otaq kimiyəm,
Salam, ay uzaqlar, salam, necəsiz?

Allahdan, bəndədən, mələkdən salam,
Torpaqdan, ağacdan, çiçəkdən salam,
Salam, hər gün salam, ürəkdən salam,
Salam, ay uzaqlar, salam, necəsiz?

## Gözəl

Qara gözlərində bir kədər yatır,
Birində kənd, birində şəhər yatır.
Bilməzsən gözlərim səni görəndən..,
Nə təhər uyuyur, nə təhər yatır,
Çıxıb yolum üstə dayanan gözəl...

Açılmaz sehrsən, bir sirsən mənə,
Hər səni görəndə gülürsən mənə.
Vaxtı soruşuram, bəhanə edib,
Ayın tarixini deyirsən mənə,
Çıxıb yolum üstə dayanan gözəl...

Hər sözün məzədir, hər baxışın toy,
Gəl indi bu qədər gözəllikdən doy...
Sən Allah get evə... tələsirəm mən,
Qatarın vaxtına lap az qalıb ooy...
Çıxıb yolum üstə dayanan gözəl...

Olmusan doğması sən yadın, neynim,
Çatmaz qulağına fəryadım, neynim...
Yoluma çıxmaqdan daha nə fayda..,
Rastıma çıxmadın vaxtında, neynim...
Çıxıb yolum üstə dayanan gözəl...

## Sevgi yağışı

Tənhalaşıb dərdə, qəmə batmayın,
Özünüzü oda, közə atmayın.
Bu yağan yağışa çətir tutmayın,
Bu yağan yağışda sevgi ətri var.

Dərbəndə, Təbrizə, Laçına yağsın,
Göyçəyə, Murova, Xaçına yağsın.
Açın, ovcunuzun içinə yağsın,
Bu yağan yağışda sevgi ətri var.

Qızıl gözəllikdi, dürr gözəllikdi,
Varsa gözəllikdə sirr, gözəllikdi.
Hər düşən damcısı bir gözəllikdi,
Bu yağan yağışda sevgi ətri var.

Nə hava dəyişsin, nə günəş çıxsın,
Nə zaman tələssin, nə ömür axsın.
Yağsın, səhərədək kaş elə yağsın...
Bu yağan yağışda sevgi ətri var.

## Sevmək cinayətdi...

Hökm oxu qəlbimə on il, on beş il...
Qara gözlərimi bağla görməyim...
Elə əzab ver ki... elə dağla ki..,
Səni ömrü boyu daha sevməyim,
Sevmək cinayətdi, həbs elə məni...

Götür qələmimi, qır tulla getsin...
Bir də ünvanına məktub yazmayım...
Bağla yollarımı dörd bir tərəfdən,
Gəlib küçənizdə daha azmayım,
Sevmək cinayətdi, həbs elə məni...

Qoluma qandal tax, günlərlə açma,
Məni susuz saxla, məni ac saxla...
Yazığın gəlsə də mənə söyləmə,
Çəkil uzaqlarda gizlincə ağla...
Sevmək cinayətdi, həbs elə məni...

Çəkdiyim fikrimə sərhəd qoy, sədd qoy,
Səni düşünməyi qadağan eylə...
Öldür gözlərimdə həyat eşqini,
Dayan bircə kəlmə əlvida söylə...
Sevmək cinayətdi həbs elə məni...

***

Ah çəkirəm ahım gedir,
Axşamım, sabahım gedir.
Hər gün bir günahım gedir,
Dualarımda rəhmətə...

Bir qolum Kür, biri Araz,
Fikrim dərin, hissim dayaz...
Götür qələm bir namə yaz,
O hicrandan, bu həsrətə...

Ömür ötdü... ömür nəymiş...
Tanrı yazan bir nəğməymiş.
Bircə addım məsafəymiş...,
...Demə, sevgidən nifrətə...

***

Ürəyimdə bir məhəbbət -
Küləyi əsdi, nə əsdi...
On il əvvəl də əsmişdi,
Bu gün, yenə, yenə əsdi...

Öpdü qara gözlərimdən,
Keçdi şirin sözlərimdən.
Bir gözəlin gözlərindən,
Yavaşca könlümə əsdi...

Əsdi könlümü ovutdu,
Bir az ruhumu uyutdu.
On il keçmişə qayıtdı,
Təzədən sevgimə əsdi...

Əsdi ömrümə,günümə,
Əsdi ayıma, ilimə...
Sevirəm deyən dilimə,
Sevən ürəyimə əsdi...

Ayağımdan başımacan,
Baharımdan qışımacan,
Üzüyümün qaşınacan...
Əsdi dönə, dönə əsdi...

***

Bütün sənsiz gecələr
Ürəyimdə gecələr...
Hər gün bir az ömrümə,
Ayrılıqlar biçilər...

Hər gün bir məktub yazıb,
Axşam cırıb ataram...
Özümü uşaq kimi,
Beləcə aldadaram...

Özümə qəsd etməyə,
Bəzən bir yer gəzərəm...
Yenə sənin xətrinə,
Sənsizliyə dözərəm...

Gəzdiyimiz küçələr,
Yol çəkər gözlərimdən.
Hardasa bir gözəl qız,
İnciyər sözlərimdən...

İnciyər, hələ səni
Unutmamışam deyə...
Qısqanar məni sənə,
Qısqanar bu sevgiyə...

Məcbur olub bir təhər,
Sevgimizi danaram...
İkinizə də elə,
Ömürlük aldanaram...